# Sən rahatlıq sevməyən atəşsən



Nəriman Nərimanovun ev muzeyi İstiqlaliyyət küçəsində yerləşir. 1977-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və şəxsən iştirakı ilə açılmış muzey 4 otaqdan ibarətdir. Nərimanov burada Həştərxandan qayıdandan sonra böyük ailəsi - kiçik bacısı və qardaşı, onların uşaqları ilə birgə yaşamağa başlayıb.

## HƏKİM OTAĞI

Burada Nərimanovun həkimlik fəaliyyəti ilə bağlı əşya və sənədləri nümayiş etdirilir. Nərimanov Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra Borçalı mahalının Qızılhacılı kəndində bir il müəllimlik fəaliyyəti ilə məşğul olur. Lakin kənd mühitinin onun potensialının açılması üçün uyğun olmadığına görə Bakıya gedib orada öz məktəbini yaratmaq sevdasına düşür. Tezliklə Bakıya gələn Nərimanov arzusunu həyata keçirə bilməsə də, buradakı gimnaziyaların birinə müəllim düzəlir. Tezliklə, işə məsuliyyətinə, savadına görə nüfuz və hörmət qazanan Nərimanov hər şeyin rusların nəzarətində olduğu bir vaxtda məktəb direktorunun etimadını qazanır. Hətta, direktor ezamiyyətə çıxanda bütün işləri Nərimanova tapşırırdı. Daha sonra kişi giminazisiyasına keçən Nərimanov eyni yolu burada da davam etdirir, nəticədə fəaliyyətinə görə Stanislavski adına üçüncü dərəcəli orden və bürünc medalla təltif olunur. Sonradan İmperatorluq Akademiyasında tibb ixtisası üzrə təhsil alan Nərimanov gələcəyin uğurlu həkiminə çevrilir. İş masasının üstündə Nərimanovun qələmə aldığı tibbə aid əsərləri var. Daha çox dramaturq və publisist kimi tanınan Nərimanov tibbi fəaliyyətlə də ciddi məşğul olurdu. O, zamanında geniş yayılmış "Traxom" xəstəliyi haqqında, eləcə də, "Hamilə qadınlara məsləhət" adında kitablar yazaraq insanlara paylayırdı. Çar hakimiyyəti dövründə bütün nəzarət rusların əlində olduğuna görə insanlar maariflənmədən geri qalır, beləliklə, gigiyena qaydalarını bilmədikləri üçün müxtəlif epidemik və infeksion xəstəliklərdən əziyyət çəkirdilər. Bütün bunlara son qoymaq və əhalinin maariflənməsi məqsədilə Nərimanov müxtəlif cəmiyyətlərdə ("Nicat", "Səfa") pulsuz mühazirələr oxuyur və yazdığı kitabları paylayırdı. O, həmçinin "Tibb və islam" əsərində dinlə tibbin üstüstə düşən cəhətlərini araşdırmağa çalışıb və Quranda yazılmış bir çox ayənin tibbi yolla izahına və doğruluğuna aid ciddi faktlar ortaya qoyurdu.

Nərimanov hər həftənin 4-cü gününü əhali üçün qəbul elan etmişdi və xəstələrini bu otaqda müayinə edirdi. O, tamamilə təmənnasız müayinə etməklə bərabər bəzi xəstələrin dərman pullarını da verirdi. Həmin dövrdə Azərbaycanlı həkimlər sayca az olduqlarına baxmayaraq, hamısı bu cür müayinə və müalicə edirdi. Haqverdiyev tez-tez ona irad tutur, belə davam edəcəyi təqdirdə ailəsinə baxmağın çətin olacağını söyləyirdi. Lakin Nərimanov insanlara təmənnasız köməkdən heç vaxt boyun qaçırmadı...

## QONAQ OTAĞI

Nərimanovun xislətindəki qayğıkeşlik, mərhəmət və sevgi duyğusu onun həyatının bütün sahələrinə və insanlara bərabər bölünmüşdü. Belə ki, onun təmənnasız sevgisi ilk olaraq ailəsiylə münasibətində uğurla sınaqdan çıxmışdı. Cavan olmasına baxmayaraq, Nərimanov böyük ailə saxlayırdı. Qohumlarının və onların uşaqlarının qayğısına qalan, böyüdüb hamısını ev-eşik sahibi edən Nərimanov, məhz bu səbəbdən özü ailə qurmağa gecikmişdi. O, 44 yaşında tacir Mir Kazımbəyin qızı Gülsüm xanımla evlənmişdi və cütlüyün toyları da məhz bu evdə baş tutmuşdu. Onlar nişanlananda Abdulla Şaiq bu xəbərdən şadlanaraq təbrik məktubunda yazırdı:

*"Möhtərəm Nəriman bəy Nərimanov cənabları!*
*Nişan qoymuşsan, eşitdim xeyir olsun!*
*Dan yıldızı kimi bəxtin durulsun.*
*Yaşa yeni yoldaşınla çox yaşa:*
*Bu dünyanı rahətliklə vur başa.*
*Fırtına, tufanlardan sonra əlbət,*
*Gözəl olur sakitlik, istirahət.*
*Yox sən rahatlıq sevməyən atəşsən,*
*Əriyəcək qəhrinlə müdhiş düşmən...*

*Şaiq*
*Bakı, 8 mart 1914"*

Nərimanovla Gülsüm xanımın toyunda Üzeyir Hacıbəyov, Nəcəf bəy Vəzirov, Abdulla Şaiq, Yusif Vəzir Çəmənzəminli, Hüseyn Ərəblinski kimi bir sıra görkəmli şəxslər iştirak etmişdilər. Toylarını da Hüseynqulu Sarabski oxumuşdu. Nərimanov xalq musiqisini, milli mahnılarımızı çox sevərmiş. Belə bir adətləri var imiş ki, hər həftənin cümə günü Nərimanovun evində yığışar, çay süfrəsi ətrafında ədəbi məclislər qurarmışlar. Hər məclisin sonunda da mütləq Sarabski oxuyarmış.



Qonaq otağında ədibin diqqət çəkən əşyalarından biri də papağıdır ki, bunu onun qohumları Tiflisdəki evindən gətiriblər. Otağın küncündə bir neçə məşhur dram əsərləri, publisistik yazıları qələmə alınan yazı masası yerləşir. Divardan asılmış Nərimanov portretinin altındakı masanın üzərində ədibin bir neçə şəxsi əşyası, eləcə də oğlu Nəcəfə yazdığı yarımçıq məktubu var. Bu məktubu Nərimanov ölümündən bir-iki ay əvvəl yazmışdı. Onu narahat edən məsələləri, heç vaxt demədiyi fikirləri oğluyla bölüşür. Həmin məktub oğlu Nəcəfə heç vaxt çatmır. Çünki Nərimanov vəfat edəndə Nəcəfin cəmi 6 yaşı var idi və məktubda yazılanları dərk edə bilməzdi. Qayğılarını və onu narahat edən məsələləri oğluyla bölüşdüyü məktubda diqqət çəkən və maraq doğuran fikirlərdən biri də bolşevizmlə bağlı yazdığıdır: "Mən sosial demokrat idim, lakin bu təşkilat getdikcə idealdan uzaqlaşır. Çünki hakimiyyət çoxlarını korlayır. Belə də oldu: hakimiyyət bir çox görkəmli işçiləri korladı. Onlar nəhəng bir dövlətin müqəddəratını öz əllərinə almaq və diktator olmaq qərarına gəldilər... bu ilk zamanlarda zəruri idi. Lakin indiyədək bu vəziyyəti davam etdirmək bolşevizmi süquta aparmaq demək idi".

Bu məktubdan görünür ki, ölkənin taleyi onu daim maraqlandırmış və narahat etmişdir. Vəfatından sonra onu xalq düşməni adlandırır və qohumlarını təqib etməyə başlayırlar. Xüsusilə, "Nərimanov" soyadı daşıyanları. Onların çoxu güllələnir, sürgünə göndərilir və müxtəlif işgəncələrə məruz qalırlar. Hətta Gəncə tərəflərdə bir uşaq yolda gedərkən yerdə şəkil tapıb müəlliminə gətirir. Müəllim şəkildəkinin Nərimanov olduğunu görəndə uşağa bir sillə çəkir. Nərimanovun şəxsiyyəti və fəaliyyəti Sovet dövründə məhz bu cür qadağalara məruz qalır. Lakin ilk dəfə Vəli Məmmədov onun şəxsiyyətini və fəaliyyətini araşdırmağa cəsarət göstərir. Hətta onun barəsində araşdırma aparmağı qərarlaşdırdığını deyəndə ona başını cəncələ salmamağı məsləhət görürlər. Lakin bütün təhlükələrə rəğmən Vəli Məmmədov Həştərxan, Tiflis, Moskva arxivlərinə gedərək orada Nərimanovla bağlı araşdırmalar aparır. 1956-cı ildə Nərimanov bəraət alır. 1957-cı ildə isə artıq Vəli Məmmədovun "Nəriman Nərimanov" adlı monoqrafiyası çap olunur. Bundan sonra, hər kəs Nərimanovu başqa aspektdən tanımağa başlayır. Kölgədə qalan məsələlərdən biri o idi ki, Nərimanov rəhbər vəzifəyə gələndə Zəngəzur mahalı artıq defakto Ermənistana verilmişdi, lakin yenə də bu qərar Büroda səsverməyə qoyulanda etiraz edən iki nəfərdən biri Nərimanov olmuşdur. Fəqət səsçoxluğu ilə Zəngəzur ermənilərə verilir. Nərimanov bütün səylərini sərf edərək Zəngəzurun şərq hissəsinin Azərbaycanda qalmasına müvəffəq olur. Habelə, yenə də Stalin və ermənilərin təşəbbüsü ilə Qarabağın da səsvermə yolu ilə ermənilərə verilməsi qərarlaşdırılır. Nərimanov gecəylə Leninə zəng edib bu qərarın dəyişdirilməsinə nail olur. Bu heç bir dövlətçilik ənənəsində yoxdur ki, bu gün verilmiş qərar səhərə qədər ləğv edilsin.

## YATAQ OTAĞI

Yataq otağında ədibin və onun həyat yoldaşı Gülsüm xanımın şəxsi əşyaları sərgilənir. Burada asılmış çilçıraqlar Moskvadakı evdən gətirilmədir. Belə ki, Gülsüm xanım 1953-cü ildə vəfat etdikdən sonra evi satışa çıxarırlar və Nərimanovun onlarla eyni binada yaşayan bacısı nəvəsi, əşyalar başqa adama qismət olmasın deyə bəzilərini satın alır. Daha sonra muzeyin açılışı zamanı onları Bakıya göndərir. Otaqda diqqət çəkən eksponatlardan biri də divardan asılmış Təbriz xalçasıdır ki, bu da Nərimanovun bacısının Hövsandakı evindən gətirilmişdir. Bu xalça orada Nərimanov üçün ayrılmış otaqda olmuşdur. Nərimanov yayda bacısıgilə getdiyi zaman bu xalının üzərində əhalini qəbul və müayinə edərmiş.

Divarda ədibin ailəsiylə - Gülsüm xanımla, oğlu Nəcəflə şəkilləri asılıb. Gülsüm xanım cavan yaşda ailə qursa da Nərimanova vəfalı həyat yoldaşı olmuş, onun adına layiq övlad yetişdirə bilmişdi. Dörd dil bilən Nəcəf Hərbi akademiyanı bitirmişdi. Təəssüf ki, o gənc yaşda müharibədə ölür. Uzun müddət özünə gələ bilməyən Gülsüm xanım bundan sonra uşaq evləriylə işləməyə başlayır. Nəcəfin şəxsi kitabxanasını və əşyalarını uşaq evlərinə bağışlayır. O, həmçinin radioda çıxışlar edir, publisistik yazılar və hekayələr də yazırdı... Gülsüm xanımla Nəcəf, Nərimanovun ölümündən sonra bir də Bakıya qayıda bilmirlər...

## YEMƏK OTAĞI

Burada Nərimanovun ailəsi ilə birlikdə yemək yediyi stol və stullar həmçinin digər şəxsi əşya və mebellər var. Otağın küncündə rəssam Eldar Şamilovun müəllifi olduğu büst var. Otaqda Nərimanovun Tiflisdəki evinin maketi də sərgilənir...

**Hazırladı:**
**Cahan Seyidzadə**